

**Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...**
*Ümummilli Lider HEYDƏR ƏLİYEV*

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti
28 oktyabr 2020-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini işğaldan azad etdi səh. 3

Milli birlik və siyasi həmrəylik - Qələbəyə aparan yol səh. 4

BDU-nun ağsaqqalları Prezidentə müraciət edib səh. 5

Həsrət uzandıqca vüsal daha şirin olur... səh. 5

"Qarabağın azadlığı üçün tarixi şərait yaranıb" - Müsahibə səh. 7

Qarabağa doğru səh. 7

BDU tələbələri "Tələbədən əsgərə" orduya dəstək layihəsinə başlayıb səh. 8



**"Biz zəfər çalacağıq, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"**

➔Səh.2



**Bakı Dövlət Universiteti Silahlı Qüvvələrə Yardım Fonduna 200 min manat vəsait köçürdü**

➔Səh.2



**Birlik və həmrəylik qələbənin rəhnidir**

➔Səh.3




**Salam, Azərbaycan əsgəri!**

➔Səh.4

# 18 oktyabr - Azərbaycanın Dövlət Müstəqilliyi Günüdür




***18 Oktyabr ən şanlı tarixi günlərimizdən biri - Azərbaycanın Dövlət Müstəqilliyi Günüdür.*** XX yüzilliyin sonlarında sovetlər birliyinin süquta uğraması ilə yaranan əlverişli tarixi şərait, mövcud tarixi zərurət, xalqımızın apardığı milli azadlıq hərəkatı nəticəsində Azərbaycan ikinci dəfə müstəqilliyinə qovuşdu. Bu, xalqımızın siyasi tarixində XX əsrdə ikinci parlaq zəfəri idi. Azərbaycan 1918-ci ildə müsəlman Şərqində ilk parlamentli, demokratik respublika qurmuş, lakin təəssüf ki, müstəqillik cəmi 23 ay sürmüş, xarici müdaxilə, mənfur qonşularımızla aparılan müharibə və beynəlxalq təminatın olmaması səbəblərindən cümhuriyyət süqut etmişdi.

İkinci tarixi şərait 70 il sonra yetişmişdi. Sovet imperiyasının çökməsi, sovet dəyərlərinin iflası Azərbaycan xalqına öz milli müstəqilliyini bərpa etmək imkanı verdi. 1991-ci ildə yenidən əldə etdiyimiz müstəqillik xalqımızın ötən əsrin əvvəllərində yaşadığı şanlı tarixin şüurlarda yaratdığı milli oyanışın, azadlıq salnaməsinin bəhrəsi idi. Həmin il avqustun 30-da Azərbaycanın müstəqilliyi haqqında bəyannamə, oktyabrın 18-də isə Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olundu və bununla da Azərbaycan demokratik və dünyəvi bir dövlət kimi yenidən müstəqilliyini dünyaya bəyan etdi. Bu mühüm tarixi sənədlə xalqımız uzun illərdən bəri həsrətində olduğu müstəqilliyinə yenidən qovuşdu.

1992-ci ilin mayında Milli Məclis müstəqil Azərbaycan Respublikasının Dövlət himnini, az sonra dövlət bayrağı və gerbini təsdiq etdi.

Ulu Öndər Heydər Əliyev "Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul edilməsinin Azərbaycanın milli dövlətçiliyi tarixində müstəsna əhəmiyyətini nəzərə alaraq 15 oktyabr 1994-cü il tarixində "18 oktyabr - Dövlət Müstəqilliyi Gününün Azərbaycan Respublikasının dövlət bayramı kimi qeyd edilməsi haqqında" fərman imzaladı. "Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm" - deyən Ulu Öndər müstəqilliyin əvəzsiz bir nemət olduğunu və xalqın tarixi taleyində çox önəmli rol oynadığını böyük qürur hissi ilə bəyan edərək misilsiz xidmətləri ilə Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi.

## "Bakı Universiteti" qəzetinin xüsusi buraxılışı nəşr edilib

Bakı Dövlət Universitetinin əsası 1929-cu ildə qoyulan "Bakı Universiteti" qəzetinin xüsusi buraxılışı nəşr edilib. Mətbuat orqanlarının içində ictimai fikrin formalaşmasında mühüm yer tutan "525-ci qəzet"in "qəzet içində qəzet" formatında çap olunan "Bakı Universiteti" qəzetinin xüsusi sayında BDU-nun professor-müəllim heyəti və tələbələrinin yazıları yer alıb.

Bakı Dövlət Universitetinin və Jurnalistika fakültəsinin tələbələrinin peşəkarlıq laboratoriyası kimi dəyərləndirilən "525-ci qəzet"i BDU-nun müəllim və tələbələrinin yaradıcılıq auditoriyası hesab etmək olar.

Qəzetin kollektivinin əksər hissəsi Bakı Dövlət Universitetinin yetirmələrindən ibarət olan "525-ci qəzet" 1992-ci ildən etibarən nəşr edilir. Qəzet milli-mənəvi dəyərlərin, ədəbi mühitin, ədəbi-bədii fikrin formalaşmasında, gənc tələbə-jurnalistlərin peşəkarlığının artırılmasında müstəsna xidmətlər göstərib.

*(ardı 2-ci səhifədə)*



## Əsgər anası olmaq....

***Səngərdə düşmənlə üz - üzə döyüşən əsgərlərimizə ithaf olunur***

➔Səh.8

# BDU-nun rektoru Universitetin kollektivi adından Prezident İlham Əliyevə müraciət ünvanlayıb

*Möhtərəm Prezident, cənab Ali Baş Komandan,*

Artıq bir neçə gündür ki, təcavüzkar Ermənistan xislətinə uyğun işğalçılıq siyasətini davam etdirərək yeni ərazilər qəsb etmək məqsədilə bütün cəbhə boyu hücuma keçməyə cəhd göstərir, beynəlxalq humanitar hüquq normalarını, beynəlxalq konvensiyaları kobud şəkildə pozaraq mülki əhalimizi, yaşayış məntəqələrimizi müxtəlif növ silahlardan, o cümlədən iriçaplı artilleriyadan atəşə tutur. Düşmənin xain hücumlarının qarşısını almaq, təhlükəsizliyimizi təmin etmək məqsədilə Sizin rəhbərliyinizlə bütün cəbhə boyu əks-hücuma keçən müzəffər Azərbaycan Ordusu tərəfindən erməni vandallarının törətdiyi növbəti təxribatın qarşısı qətiyyətlə alınır, düşmənə adekvat cavab verilir. Ordumuz tam şəkildə hərbi və mənəvi üstünlük əldə edərək, düşmənə sarsıdıcı zərbələr endirir.

Fərəhli haldır ki, xalqımız hər gün, hər saat uzun illər ərzində işğal altında qalan ərazilərimizin, yaşayış məntəqələrinin işğaldan azad edilməsi, strateji əhəmiyyətli yüksəkliklərin ələ keçirilərək nəzarətə götürülməsi barədə rəsmi qələbə xəbərləri alaraq bu zəfərlərin qürur və sevincini yaşayır.

Xüsusilə, Sizin xalqımıza müraciətiniz, BMT-nin 75 illiyinə həsr edilmiş iclasda dərin məzmunlu çıxışınız və Rusiyanın "Rossiya 1" telekanalına verdiyiniz müsahibənizdə səsləndirdiyiniz fikirlər, haqlı və kəskin mövqeyiniz bizdə Böyük Qələbəyə inamımızı daha da artırıb.

Bu gün ölkəmizin ərazi bütövlüyünü təmin etmək, torpaqlarımızı tam olaraq işğaldan azad etmək üçün tarixi bir məqam yetişib. Bilirik ki, bu şansı əldən verməmək üçün bizə birlik və həmrəylik hər şeydən vacibdir. Bu gün hər bir Azərbaycan vətəndaşı rəşadətli və yenilməz Silahlı Qüvvələrimizin, Sizin ətrafınızda daha sıx birləşərək həmişəkindən daha güclü birlik və həmrəylik nümayiş etdirir.

Cənab Ali Baş Komandan, bizə bu xoş günləri yaşatdığınıza görə Sizə Bakı Dövlət Universiteti ailəsi adından hədsiz təşəkkür edirik. Sizin hər bir əmrinizi layiqincə yerinə yetirməyə, Böyük Qələbəyə nail olunması naminə dövlətimizə və ordumuza hər cür dəstək verməyə hər an hazırıq.

*İnanırıq ki, Sizin rəhbərliyinizlə biz mütləq qalib gələcəyik!*
*Əminik ki, o gün uzaqda deyil.*
*Allah Sizi və rəşadətli Ordumuzu qorusun!*
*Dərin hörmət və ehtiramla,*

***Bakı Dövlət Universitetinin professor-müəllim heyəti və tələbələri adından rektor Elçin Babayev***

***Azərbaycan Respublikası, Bakı şəhəri***

# "Bakı Universiteti" qəzetinin xüsusi buraxılışı nəşr edilib


Milli jurnalistikanın ali təhsil və elmi araşdırma mərkəzi
BAKI UNİVERSİTETİ
Tarixi ədalət bərpa olunur...

*(əvvəli 1-ci səhifədə)*

Əlavə edək ki, tədrisin keyfiyyətini, mühüm elmi problemləri şərh etmək və istiqamətləndirmək, təlim-tərbiyə sahəsindəki uğurları, laboratoriya və kafedralarda aparılan elmi-tədqiqat işlərini, mədəni-kütləvi tədbirləri, tələbə həyatını işıqlandırmaq "Bakı Universiteti" qəzetinin qarşısında duran vəzifələrdir.

# "Biz zəfər çalacağıq, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"



Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutmaqda davam edirlər. Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər və yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaqdır. Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikaları sıradan çıxıb. Bu, erməni faşizminin növbəti təzahürüdür.

Bəli, faşist və nasist Ermənistan bir daha əsl murdar və riyakar, fitnəkar və təxribatçı simasını açıb ortaya qoydu. Bir daha işğalçı və təcavüzkar, sülhə və təhlükəsizliyə təhdid, təhlükə olduğunu dünyaya nümayiş etdirdi. Bir daha göstərdi ki, onun cavabı yalnız silahla, hərblə, savaşla verilməlidir. Bəli, istədiyi cavab da layiqli şəkildə verilib, verilir və veriləcək. Artıq Ermənistana, ermənilərə və onların havadarlarına heç bir güzəşt olmamalıdır və olmayacaq.

Biz hər zaman sülh tərəfdarı olmuşuq, işğala, təcavüzə məruz qalsaq da, sülhün baş tutması, əmin-amanlığın yaranması üçün daim əməli, səmimi addımlarımızı ortaya qoymuş, iradəmizi nümayiş etdirmişik. Ümumiyyətlə, 32 ildir səbr, dözüm göstərmişik. Amma səbrin də, dözümün də bir həddi var. Həm iyul hadisələri, həm də son bir neçə gündə və bu gün səhər tezdən baş verənlər səbrə, dözümə artıq yer qalmadığını göstərdi. Hərb variantından, müharibədən başqa yolumuzun olmadığını ortaya qoydu. Bunu biz istəmirdik, bunu ermənilər, Ermənistan, onların havadarları istəyirdi və istədiklərini də aldılar, alacaqlar. Onlara layiqli cavab verilib, verilir və veriləcək.

"İyul təxribatından sonra deməsidim ki, Ermənistanın acı məğlubiyyəti onlar üçün dərs olmalıdır. Avqust ayında Ermənistan növbəti hərbi təxribata əl atdı. Bu dəfə Azərbaycana diversiya qrupu göndərilmişdir. Diversiya qrupunun başçısı Azərbaycan hərbçiləri tərəfindən saxlanılmışdır və hazırda ifadələr verir. Bu ifadələrdə açıq-aydın göstərilir ki, bu planlaşdırılmış təxribatçı diversiya qrupu Azərbaycana terror aktları törətmək üçün gəlmişdir. Bu gün Ermənistan tərəfindən mülki əhaliyə və hərbçilərimizə qarşı növbəti hərbi təxribat törədildi. Qeyd etdiyim kimi, onlar öz cəzalarını alıblar və alacaqlar".

Bəli, bu saatlarda, bu dəqiqələrdə belə düşmənə layiqli cavab verən Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Belə olan halda, erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun, işğal ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır.

Bir sözlə, biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Ali Baş Komandanımızın müraciətində də deyildiyi kimi, "Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

***Jalə Əliyeva,***
***Milli Məclisin deputatı,***
***Türk filologiyası kafedrasının professoru***

# Bakı Dövlət Universiteti Silahlı Qüvvələrə Yardım Fonduna 200 min manat vəsait köçürdü



Bakı Dövlət Universitetinin (BDU) Elmi Şurasının iclası keçirilib. İclasda çıxış edən BDU-nun rektoru Elçin Babayev sentyabrın 27-si səhər saatlarından başlayan Azərbaycan torpaqları uğrunda döyüşlərin artıq 9 gündür ki, davam etdiyini bildirərək, təcavüzkar Ermənistanın silahlı qüvvələrinin bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan, iri çaplı silahlardan yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutulduğunu qeyd edib. Bildirib ki, Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun həyata keçirdiyi uğurlu əks-həmlə əməliyyatı nəticəsində işğal altında olan bir sıra kəndlərimiz, vacib yüksəkliklər və əlverişli ərazilər azad edilib. Düşmənə məxsus müxtəlif təyinatlı hərbi texnika, döyüş vasitələri, komanda məntəqəsi, yüzlərlə canlı qüvvə məhv edilib.

Rektor əlavə edib ki, Ermənistan tərəfi Azərbaycanın mülki əhalisini və infrastrukturunu məqsədyönlü şəkildə hədəfə almaqla beynəlxalq hüququn norma və prinsiplərini kobudcasına pozur. Ermənistanın hərbi-siyasi rəhbərliyinin göstərişi ilə düşmənin silahlı qüvvələri tərəfindən Azərbaycan əhalisinin sıx yaşadığı məntəqələr ağır artilleriya atəşinə tutulur və bununla da mülki əhalimizə qarşı müxtəlif cinayətlərin törədilməsi davam edir. Erməni qəsbkarları Azərbaycanın Beyləqan, Tovuz, Tərtər, Xızı, Gəncə, Şəmkir, Mingəçevir, Abşeron, Göygöl, Bərdə, Füzuli, Ağdam şəhərlərinə, dinc əhaliyə atəş açıblar.

Rektor qeyd edib ki, mənfur düşmənin təcavüzkar əməllərinə baxmayaraq Şanlı Ordumuzun uğurlu döyüşləri nəticəsində torpaqlarımızın azad olunması, Azərbaycan ordusunun düşmən üzərindəki qələbələri xalqda böyük ruh yüksəkliyi yaradıb. Bu gün hər bir Azərbaycan vətəndaşının ürəyi müzəffər ordumuzla döyünür. Səbirsizliklə qələbələrin davamını və Böyük Qələbə gününü gözləyirik və əminik ki, o gün çox yaxındır.

Sonra professorlar İzzət Rüstəmov, Məhəmməd Mehdiyev, Vasif Babazadə, Şövqisəfa Göyçaylı, Aydın Kazımzadə, Sevinc Hacıyeva, Tapdıq Həsənov çıxış edərək Azərbaycanın haqq mübarizəsindən, ordumuzun qələbələrindən, Azərbaycan Prezidentinin qətiyyətli siyasətindən söz açıb, BDU-nun professor-müəllim heyətinin hər an Ali Baş Komandanın, Şanlı Ordumuzun yanında olduqlarını bildirib, cəbhə üçün, qələbə üçün bütün qüvvələrin səfərbər olduğunu qeyd ediblər.

BDU-nun ağsaqqal professorları təklif ediblər ki, Azərbaycan Silahlı Qüvvələrinə Yardım Fonduna 200 min manat yardım edilsin. Təklif böyük ruh yüksəkliyi ilə yekdilliklə qəbul olunub.

# Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini işğaldan azad etdi

***Sentyabr ayının 27-dən başlayaraq cəbhənin bütün istiqamətində Ermənistan silahlı qüvvələrinin torpaqlarımızda törətdiyi təxribatlara rəşadətli Azərbaycan Ordusunun layiqli cavabı xalqımızda fərəh və qürur hissləri doğurdu. Müzəffər ordumuz Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi ilə Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlı rayonlarını, strateji yüksəkliklər i düşmən tapdağından azad etməklə xalqımıza böyük sevinc bəxş etdi.*** Azərbaycan 27 ildən sonra möhtəşəm zəfər tarixi yazmaqla bir daha sübut etdi ki, işğalla heç bir zaman barışmayacaq, Azərbaycanın şanlı bayrağı bütün işğal olunmuş torpaqlarımızda dalğalanacaqdır.

Əsrlər boyu öz əsassız torpaq iddiaları ilə bütün regiona təhdid olan Ermənistanın siyasi rəhbərliyi danışıqlarda qeyri-konstruktiv mövqeyi ilə Qarabağı Ermənistanın ərazisi hesab etməklə bütün danışıqlara zərbə vurmuş, Azərbaycana başqa çıxış yolu qoymamışdır. Azərbaycan düşmənə qarşı əks-hücum əməliyyatlarını həyata keçirməklə sübut etdi ki, bu gün heç bir qüvvə bizimlə təhdid dili ilə danışa bilməz, bizə şərt qoya bilməz. Bütün dünya birliyi bilir və bilməlidir ki, Azərbaycanın heç bir ölkənin torpağında gözü yoxdur, Biz haqq mübarizəsi aparır və öz torpaqlarımızın azad edilməsi uğrunda vuruşuruq. Ermənistan isə hərb qaydalarına əməl etmir, mülki əhalini atəşə tutur, ağır artilleriya və raketlərdən cəbhə boyu yaşayış məntəqələrinə hücumlar təşkil etməklə provakasiya yolu ilə üçüncü tərəfləri münaqişəyə cəlb etmək istəyir. Bu da Cenevrə Konvensiyasının kobud şəkildə pozulması deməkdir ki, həmsədr ölkələr və beynəlxalq qurumlar bu məsələyə öz münasibətlərini mütləq qaydada bildirməlidirlər.

Bölgədə sülhün və sabitliyin təmin olunmasına daim öz töhfəsini verən Azərbaycan münaqişənin nizamlanması istiqamətində bundan sonra illərlə gözləmək niyyətində olmadığını açıq şəkildə ifadə etmişdir. Bu illər ərzində BMT-nin işğalçıların torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılması ilə bağlı dörd qətnaməsini, Beynəlxalq hüququn prinsiplərini, mülki əhalini hədəf almaqla Cenevrə Konvensiyasının tələblərini pozan təcavüzkar Ermənistan sülhə məcbur edilməli və açıq-aşkar işğalçı siyasət yürütdüyünə görə ona qarşı təzyiqlər artırılmalı, sanksiyalar tətbiq edilməli, bu siyasətə son qoyulması üçün qəti addımlar atılmalı və işğalçı dövlət beynəlxalq birliyin iradəsinə tabe etdirilməli idi. Lakin təəssüf ki beynəlxalq təşkilatlar uzun illər ərzində bu istiqamətdə zəruri heç bir tədbir həyata keçirmədilər, əksinə münaqişənin həllini uzatmaqla regionda təhlükə mənbəyinə çevrilən Ermənistanın riyakar və təxribatçı siyasətinə göz yumdular. Otuz ilə yaxındır ki, bu qətnamələrə məhəl qoyulmur. Otuz ilə yaxındır ki, Minsk qrupu çərçivəsində danışıqlar aparılır və bunun sonunda Ermənistan müntəzəm olaraq təxribatlar törətməklə danışıqlar prosesini iflic vəziyyətə salır.

*Qeyd edilməsi vacib məqamlardan biri də budur ki, Azərbaycanda bu gün mövcud olan dövlət-ordu-xalq birliyi zəfərimizin əldə olunmasında müstəsna əhəmiyyətə malikdir. Azərbaycanın müstəqillik tarixində artıq neçənci dəfədir ki, müxtəlif fərqli məqsədi və məramı olan siyasi partiyalar siyasi mədəniyyət nümunəsi və həmrəylik göstərirlər.*

Bu gün bütün cəmiyyətimiz Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin ətrafında sıx birləşmiş, müqəddəs torpaqlarımızı işğaldan azad etmək missiyasında öz üzərilərinə düşən bütün vəzifələri layiqincə yerinə yetirməyə hazırdır. İşğal altında olan torpaqlarımızın geri qaytarılması ilə bağlı dövlətimizin başçısının qətiyyətli və dönməz mövqeyi xalqımızda böyük inam yaratmış, ordumuzun şücaəti ilə zəfərimizin tezliklə əldə olunacağı artıq zərurətə çevrilmişdir. Əminik ki, qələbəmiz davamlı olacaq və xalqımız itirilən torpaqlarına çox yaxında qovuşacaqdır. Qələbə bizimdir! Qarabağ Azərbaycandır!

***Rəşad Cabarov,***
***BDU HİK-nin sədri,***
***Azərbaycan tarixi kafedrasının müəllimi***

# Birlik və həmrəylik qələbənin rəhnidir

Azərbaycan Respublikasının dövlət müstəqilliyi uğrunda mübarizəsinin gedişində Ermənistanın əsassız ərazi iddiaları zəminində başlayan Dağlıq Qarabağ münaqişəsi artıq 30 ildən çoxdur ki, nəinki respublikamızın, ümumiyyətlə, Cənubi Qafqazın təhlükəsizliyinə başlıca hədəyə çevrilmişdir. Ötən illər ərzində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, son 17 ildə isə onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin məqsədyönlü diplomatik-siyasi fəaliyyəti nəticəsində Ermənistan artıq işğalçı dövlət qismində beynəlxalq aləmdə nüfuzdan düşmüş və hər hansı dəstəkdən məhrum olmuş, Azərbaycan isə beynəlxalq mövqelərini daha da möhkəmləndirmişdir. Ölkəmizdə siyasi həmrəylik yaranmış, xalqımız dövlətimizin ərazi bütövlüyü uğrunda apardığı müqəddəs mübarizənin gedişində ölkə Prezidentinin ətrafında sıx birləşmişdir.

Son günlər Ermənistan tərəfinin növbəti təxribatı nəticəsində cəbhə xəttində cərəyan edən proseslər bir daha Azərbaycanda dövlətlə xalq arasındakı həmrəyliyin sarsılmaz olduğunu nümayiş etdirdi. Məlumdur ki, sentyabrın 27-də mənfur düşmənin atəşkəs rejimini pozması və xain təxribatı nəticəsində cəbhə xəttindəki gərginlik yüksək həddə çatmışdır. Təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi Cenevrə Konvensiyası ilə üzərinə düşən öhdəlikləri kobud şəkildə pozaraq hərbi obyektlərimizlə yanaşı dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri də ağır silahlardan atəşə tutmuş, o cümlədən mülki əhaliyə qarşı müxtəlif cinayətlər törətmişdir.

Təxribatdan dərhal sonra erməni birləşmələrinə qarşı cavab tədbirləri həyata keçirən ordumuz inamla düşmən mövqelərinə doğru irəliləməyə başlamışdır. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin əmri ilə qısa zamanda səfərbər olan Azərbaycan ordusu döyüşlərin ilk günündən etibarən böyük zəfərlər qazanmış və nəticədə Cəbrayıl şəhəri, bir sıra kəndlərimiz, xeyli sayda yüksəkliklər, o cümlədən strateji əhəmiyyətli Murov yüksəkliyi azad edilmişdir. Bu yüksəklik ordumuza Ermənistandan Dağlıq Qarabağa silah-sursat daşınması üçün istifadə olunan Vardenis-Ağdərə yoluna nəzarət etməyə imkan yaratdı. Eyni zamanda ordumuz tərəfindən erməni birləşmələrinin canlı qüvvəsi və hərbi texnikasına vurulmuş ağır zərbələr mənfur düşmənin qaçaraq öz mövqelərini tərk etməsinə səbəb olmuşdur.




Onu da qeyd etməliyik ki, bu gün Ermənistan nəinki cəbhə xəttində, həmçinin siyasi arenada belə təşviş içindədir. Təşvişin əsas səbəbi Ermənistan hərbi-siyasi elitasının hazırda, şahmat dili ilə desək, suqsvanq, yəni çıxılmaz bir vəziyyətdə olmasıdır. Belə ki, ordumuzun qələbələri, beynəlxalq ictimaiyyətin Azərbaycan dövlətinin yanında olması və ölkəmizin bu haqlı mübarizəsini dəstəkləməsi ölkə daxilində baş verən sosial-iqtisadi problemlər və pandemiyanın mənfi təsirləri fonunda diqqəti başqa tərəfə yönəltməyə çalışan Ermənistan rəhbərliyini, erməni siyasi-diplomatik elitasını məyus etmişdir.

Ordumuzun həm tarixi, həm də hüquqi aspektdən Azərbaycana məxsus olan torpaqları düşmən ünsürlərdən təmizləməsi BMT Nizamnaməsinin 51-ci maddəsi ilə təsbit olunan dövlətlərin özünü müdafiə hüququ prinsipinə tam uyğundur. Bütün bunların fonunda Ermənistanın beynəlxalq hüquqa laqeyd yanaşmaqla bərabər, təcavüzkar siyasət ritorikasına sadiq qalması Azərbaycanın səbr kasasını daşırmışdır desək yanılmarıq. BMT Təhlükəsizlik Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası və digər mühüm qurumların Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş torpaqlarından qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrin heç birinə məhəl qoymayan Ermənistanın hərbi-siyasi elitası sərsəm bəyanatlar verməklə status-kvonun saxlanmasında maraqlı olduğunu nümayiş etdirmişdir.

Paşinyan hakimiyyətinin "Qarabağ Ermənistandır", "Qarabağ ayrıca tərəf olmalıdır" kimi bəyanatları, üstəlik tarixi Azərbaycan şəhəri olan Şuşada Qondarma Dağlıq Qarabağ Respublikasının qondarma prezidentinin inaqurasiya mərasimini keçirməsi və iyulun 12-də Tovuz bölgəsindəki təxribatı Ermənistanın danışıqlar formatından tamamilə qaçmasının açıq-aşkar təcəssümüdür.

Substantiv danışıqlardan uzaqlaşaraq, münaqişənin həllində qeyri-konstruktiv mövqe sərgiləyən Paşinyan hökuməti Azərbaycan ordusunun hazırkı zəfərləri qarşısında aciz qalaraq beynəlxalq ictimaiyyətdən yardım istəməklə məşğuldur. Beynəlxalq arenada "Türkiyə Azərbaycana Suriyadan döyüşçülər göndərir" kimi əsassız bəyanatlar səsləndirərək münaqişəyə üçüncü tərəfi cəlb etməyə çalışan Ermənistanın sərsəm ritorikası Prezident İlham Əliyevin Rusiyanın "Rossiya 1" kanalına verdiyi müsahibədə tutarlı şəkildə cavablandırıldı. Türkiyə ilə qardaş dövlət olsaq da, 10 milyonluq əhaliyə, hərbi-texnoloji üstünlüyə malik Azərbaycana 2 milyonluq Ermənistan qarşısında hər hansı bir yardım gərəkməz və ən əsası, dövlətimizi qüvvətli edən başlıca amil, onun haqq yolunda olmasıdır.

Bəli, bizim işimiz haqq işidir. Biz öz torpaqlarımız uğrunda döyüşürük. Möhtərəm Prezidentimiz keçirdiyi bütün görüşlərdə dəfələrlə bəyan etmişdir ki, biz öz torpaqlarımızda ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəyik!

Bu gün Azərbaycan əslində öz ərazilərini, beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycanın ərazisi kimi tanınan tarixi torpaqlarını düşmən ünsürlərdən təmizləməklə məşğuldur. Bu müharibə fonunda Azərbaycan xalqının siyasi həmrəylik nümayiş etdirərək Ali Baş Komandanın ətrafında mənfur düşmənə qarşı birləşməsi də təqdirəlayiqdir. Bir neçə gün öncə Azərbaycanda fəaliyyət göstərən 50 siyasi partiyanın birgə bəyanatı bu həmrəyliyin bariz sübutudur. Yalnız iki partiya - AXC və Müsavat partiyaları bu bəyanatı imzalamaqdan imtina edib, ölkənin belə ağır müharibə aparmasına baxmayaraq öz məkrli və xain üzlərini göstərdilər. Qeyd olunan siyasi partiyaların rəhbərlərinin xain mövqeyinə baxmayaraq Azərbaycan xalqı həmrəydir və xalqımızın Prezident İlham Əliyevə, Azərbaycan dövlətinə və ordusuna olan inamı sarsılmazdır.

QƏLƏBƏ BİZİMLƏDİR!

***Zeynalabdin Həsənəliyev,***
***Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin dekanı,***
***Tarix elmləri doktoru,***
***professor***

# “Dünyaya ağlımızı, gücümüzü göstəririk” - Zəngilandan olan professor

***“Bu gün bizim sevinən mərhələmizdir. Xalqımız, ordumuz sınaqdan keçir. Dünyaya ağlımızı, şüurumuzu, gücümüzü göstəririk”.***

***Bunu Azvision.az-a tanınmış jurnalist, professor Qulu Məhərrəmli doğma yurdu Zəngilanın işğaldan azad olunması barədə danışarkən deyib. O bildirib ki, Zəngilanın və digər yaşayış yerlərimizin azad olunması tarixi hadisədir.***

“Özümü Azərbaycan məhsulu hesab edirəm. Zəngilanda doğulmuşam, 10 il orta məktəbi Şuşada oxumuşam, Bakıda evlənmişəm. Bir çox tərəflər mənim həyatımda birləşib. Azərbaycanlı üçün torpağın hər qarışı doğmadır. Füzuli, Cəbrayıl, Xocavəndin kəndləri alınanda necə sevinirdimsə, Zəngilana da elə reaksiya verdim. Sabah Qubadlı azad olunanda da eyni hissləri yaşayacağam.

Doğrudur, əzizlərinin uyuduğu məkanın artıq sənin əlində olması ayrı bir hissdir. Sözlə ifadə edilməyəcək dərəcədə zəngin bir duyğudur. Uşaqlığım, qaçdığım o cıdırlar yenə gözlərimin önündə canlandı. Bizə bu duyğunu yaşadan ordumuza, generallarımıza, Ali Baş Komandanımıza minnətdarıq. Və bütün xalqıma təşəkkür edirəm ki, bir yumruq kimi ordunun arxasında dayanır”

Jurnalist birinci Qarabağ müharibəsinin şahidi olduğunu, həmvətənlərimizin dərdini, acısını şəxsən gördüyünü dilə gətirib: - Mən 1991-ci ildən başlayaraq cəbhə bölgələrindən reportajlar hazırlayırdım. Səngərlərdə müsahibələr alırdım, canlı efir aparırdım. Bütün hadisələrin içində idim. Xocalı faciəsi mənim həyatımda dönüş anı oldu. Çünki, ay yarım qabaq mən orada olmuşdum. Kazarmada əsgərlərimizlə birgə 10 gün qaldım. Həmin döyüşlərdə həlak olan insanlarla tanış idim. İndi də danışanda onlar gözümün qabağından keçir. Sözün əsl mənasında qəhrəman kimi döyüşüb həlak oldular. Bütün bunları görmək dəhşətli bir hiss idi. Hadisələr mənə hopmuşdu. Real vəziyyətin necə olduğunu gördüm. Prosesləri dərk edəndə içindən böyük ağrılar keçir. İnsanın kədəri həmişə dərin olur. Sevinc hissi isə fərqlidir. Bunu müqayisə etmək çətindir. Bu gün bizim sevinən mərhələmizdir. Birinci Qarabağ savaşında yarımçıq qalmış döyüş planlarımızı ordumuz davam etdirir. Tarixi sınaq günlərini yaşayırıq. Xalqımız, ordumuz sınaqdan keçir. Dünyaya ağlımızı, şüurumuzu, gücümüzü göstəririk.

Hüseyn Cavidin belə bir sözü var : “Bugünkü müharibədə toplar, tüfənglər deyil, hər məmləkətin ədəbiyyat və fəlsəfəsi ilə bəslənən beyinlər də ayrıca haizi-əhəmiyyətdir”. Nə yaxşı ki, biz imtahandan üzüağ çıxırıq.

# Salam, Azərbaycan əsgəri!

Bu gün bütün dünyanın gözü qarşısında sənin rəşadətin və hünərinlə yeni tarix yazılmaqdadır. Bu tarix - son iki yüz illik ağrı acılarımıza bir məlhəmdir sanki. İşğaldan azad etdiyin hər kənd, hər qəsəbə, hər şəhər natamam olan bütünlüyümüzün yaralı hissələridir. Bu yaraları sağaldacağıq, mütləq sağaldacağıq, təki sən şəhid qanı ilə yoğrulmuş üç rəngli bayrağımızı Qarabağın hər qarışında vüqarla dalğalandır.

Xocalıda ləkə vurulmuş namusumuzu qanın, canın bahasına təmizləyən Azərbaycan əsgəri!




Bizim hər birimizin Azərbaycan adlı bir sevdası var. Bu sevda haqqında qanı ilə dastan yazan sənsən. Sən canından can verdin vətənə, Vətən oldun.

Yüz illər əvvəl, dünyanın dörd bir yanında qılıncının hökmü ilə haqq və ədalətin yer üzündəki kölgəsi olmuş şəhid və qazi babalarının yolu ilə gedən Azərbaycan əsgəri!

Qadir Mövlam yar və yardımçın olsun! Haqq bizimlədir! Haqq sənsən!!!

***Vüqar Əliyev,***
*Jurnalistika fakültəsinin dekanı, filologiya üzrə elmlər doktoru*

# Bakı Dövlət Universiteti Silahlı Qüvvələrə Yardım Fonduna ümumilikdə 473 656 manat vəsait köçürüb

Müzəffər Azərbaycan Ordusunun şanlı qələbələri hər birimizi sevindirməkdə davam edir. Bu gün hər bir azərbaycanlının ürəyi qüdrətli ordumuzla bir döyünür, Böyük Qələbənin qazanılması üçün əlindən gələni etməyə çalışır. Ordumuza dəstəyi mənəvi borc hesab edərək Silahlı Qüvvələrimizə yardım olunur. Ölkəmizin ən böyük universiteti olan Bakı Dövlət Universitetindən də Silahlı Qüvvələrimizə yardımlar davam edir.

Bakı Dövlət Universiteti Elmi Şurasının qərarı ilə Azərbaycan Silahlı Qüvvələrinə Yardım Fonduna Universitet büdcəsindən 200 min manat vəsait köçürülmüşdü. Bundan sonra BDU-nun əməkdaşları da fərdi qaydada könüllü şəkildə aylıq əmək haqlarından müəyyən miqdarda vəsaitin Azərbaycan Silahlı Qüvvələrinin Yardım Fonduna köçürülməsi üçün müraciət etmişdir. BDU əməkdaşlarının müraciətləri əsasında toplanan 273 656 manat vəsait bu gün Silahlı Qüvvələrə Yardım Fonduna köçürülmüşdür.

Bununla da Bakı Dövlət Universitetinin Azərbaycan Silahlı Qüvvələrinə Yardım Fonduna köçürdüyü vəsait ümumilikdə 473 656 manata çatmışdır.

BDU ailəsi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə igid əsgər və zabitlərimizin tezliklə işğal altında olan bütün torpaqlarımızı işğaldan azad edəcəklərinə əmin olduğunu bildirir və şanlı ordumuza yeni zəfərlər arzulayır.

***Yaşasın müzəffər Azərbaycan Ordusu!***
***Qarabağ Azərbaycandır!***

# Milli birlik və siyasi həmrəylik - Qələbəyə aparan yol

***Bu gün Azərbaycan xalqının zəngin və qədim tarixinin ən şərəfli səhifəsi yazılır. Döyüşlə yazılır... Fəxarət və yüksək qürur hissi ilə yazılır...***

Ordumuzun erməni işğalçılarının hərbi təxribatlarına qarşı sentyabrın 27-dən başlatdığı uğurlu əks-hücum əməliyyatı davam etməkdədir. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əsasını qoyduğu, bu gün döyüş hazırlığına görə dünyanın 50 ən aparıcı ordusu sırasında qərarlaşmış Azərbaycan Ordusu dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında uzun illər işğala məruz qalmış bir çox yaşayış məntəqələrini, strateji əhəmiyyətli yüksəklikləri azad edib, bu ərazilərdə üçrəngli bayrağımızı dalğalandırıb. Son günlər cəbhə xəttindən gələn xoş xəbərlər hər birimizi qürurlandırır, doğma torpaqlarımızın tamamilə işğaldan azad olunacağına inamımızı artırır.

Növbəti təxribatı törətməklə müxtəlif növ silahlardan, ağır artilleriyadan mövqelərimizi, şəhərlərimizi, kəndlərimizi atəşə tutan Ermənistan öz dövlət siyasətinin yalnız faşizmə və terrora bağlı olduğunu bir daha nümayiş etdirdi. Dinc əhaliyə qarşı bu cür qəddarlıq ancaq faşist xislətli dövlətə məxsus ola bilər.

Güclü, qüdrətli, döyüş ruhlu Ordumuzun keçirdiyi uğurlu əks hücum əməliyyatı nəticəsində düşmən xeyli canlı qüvvə və hərbi texnika itirərək geri oturdulub. Azərbaycan Ordusu günbəgün mənfur düşmən üzərində Böyük Qələbəyə yaxınlaşır.

Ordumuzun döyüş hazırlığı səviyyəsi yüksək, maddi-texniki bazası möhkəmdir. Şəxsi heyət müasir silah və texnikadan məharətlə istifadə etmək bacarığına malikdir. Amma Ordumuzun qüdrətini artıran ən başlıca amil onun xalqla olan birliyidir. Məhz sarsılmaz xalq-ordu-dövlət birliyi Azərbaycanın düşmən üzərində qələbəsini təmin edəcəkdir.

Xalqımızın milli birliyi, cəmiyyətimizdə hökm sürən milli həmrəylik, xalqla iqtidarın birliyi ölkənin siyasi həyatına da öz müsbət təsirini göstərmişdir. Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatına dair ölkəmizdə fəaliyyət göstərən 52 siyasi partiyanın 50-nin birgə bəyanatı Azərbaycanda siyasi həmrəyliyin bariz nümunəsidir. Yalnız Müsavat Partiyası və Azərbaycan Xalq Cəbhəsi Partiyası milli həmrəylik nümayiş etdirmədilər, torpaqlarımızın Ermənistanın işğalından azad edilməsi üçün şanlı ordumuzun uğurlu əks-hücum əməliyyatlarına digər siyasi partiyalarla birlikdə dəstək vermədilər. Bu anti-milli ünsürlər açıq aşkar nümayiş etdirdilər ki, onlar milli məsələlərdə həmrəylik göstərə bilmir, “beşinci kalon”un tapşırıqlarını yerinə yetirərək düşmən dəyirmanına su tökməklə vətənə və dövlətçiliyə xəyanət yolunu tutublar. Ali Baş Komandanın bu sahədə həyata keçirtdiyi siyasəti dəstəkləməmələri onların səmimi olmadıqlarını və əsl simalarını üzə çıxarmış oldu.

Ölkə siyasətçilərini birləşdirən mənfur qonşumuzun işğalçı siyasətinə qəti etiraz və xalqımızın haqq, ədalət tələbidir. Ölkədə fəaliyyət göstərən siyasi partiyaların rəhbərləri öz birgə bəyanatında Ermənistanın işğalçı siyasətini şiddətlə qınamış, mülki əhalinin yaşadığı kəndlərin bombalanması faktının insanlığa qarşı edilən cinayət kimi beynəlxalq təşkilatlar tərəfindən qiymətləndirilməsinin vacibliyini vurğulamışlar. Birgə bəyanatda beynəlxalq hüququn aliliyinin bərqərar olunması tələb olunur, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə Ermənistanın 30 ilə yaxın bir müddət ərzində məhəl qoymadığı vurğulanır, dövlət başçısının işğal olunmuş ərazilərdə status-kvonun dəyişməz qalmasının mümkünsüz olduğu barədə fikri dəstəklənir.

Azərbaycan dövlətinin ədalətli və məsuliyyətli mövqeyi ölkə Prezidenti İlham Əliyevin “Bizim Ermənistan torpağında siyasi və hərbi maraqlarımız yoxdur” fikri ilə ifadə olunmuşdur. Savaş Azərbaycan ərazisində, Ermənistanın işğal etdiyi torpaqlarda gedir. Savaş bu torpaqların işğaldan azad edilməsi, Azərbaycanın dövlət sərhədlərinin bərpa olunması, bölgədə sülhün və əminamanlığın bərqərar olması uğrunda gedir. Azərbaycan sülhü hərtərəfli dəstəkləyən, beynəlxalq hüquqa hörmətlə yanaşan dövlətdir. 30 ilə yaxın müddətdə atəşkəsi qoruyub saxlamaq, BMT qətnamələrinin icrasını gözləmək... Məgər bu cür yaşam tərzi xalqımızın və dövlətimizin sülhsevərliyindən xəbər vermirmi? Amma Ermənistan sülhü və beynəlxalq hüququ rədd edən dövlətdir. Atəşkəsin mütəmadi pozulması və məsuliyyətsiz bəyanatlar dövlət siyasəti faşizm ideologiyasına əsaslanan Ermənistanın terrorla yoğrulmuş xislətinin göstəricisi deyilmi?

*(Ardı 6-cı səhifədə)*

# BDU-nun ağsaqqalları Prezidentə müraciət edib

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı, Zati-aliləri cənab İlham Əliyevə**

***Möhtərəm Prezident, cənab Ali Baş Komandan.***

Biz, Bakı Dövlət Universitetinin bir qrup ağsaqqal professor-müəllim heyəti Sizə müraciət edərək bildiririk ki, xalqımız Sizin qətiyyətinizdən və iradənizdən ruhlanır, möhtəşəm fəaliyyətinizi daim yüksək qiymətləndirir, bütün sahələrdə yürütdüyünüz məqsədyönlü və müdrik siyasətinizi ürəkdən dəstəkləyir. Əsası müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulan siyasi kursun layiqli davamçısı kimi Sizin son 17 ildə apardığınız uğurlu daxili və xarici siyasət, təşəbbüsünüz və rəhbərliyinizlə həyata keçirilən çoxsaylı dövlət proqramları, sosial layihələr nəticəsində Azərbaycan xalqı, Azərbaycan Respublikası əsas məqamları aşağıdakı tezislər formasında ifadə olunan bir sıra nailiyyətlər əldə etmişdir:

- Azərbaycan iqtisadi cəhətdən inkişaf etmiş qüdrətli bir dövlətə çevrilmişdir. Bu gün Azərbaycan artıq dünyanın inkişaf etməkdə olan dövlətləri sırasından inkişaf etmiş dövlətlər sırasına adlamaq ərəfəsindədir;
- Azərbaycanın beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə yüksəlmişdir. Azərbaycan bu gün dünyada iri miqyaslı layihələrin təşəbbüskarı və uğurlu icraçısına, çoxsaylı beynəlxalq tədbirlərin keçirildiyi mərkəzə çevrilmişdir;
- Azərbaycan bir sıra beynəlxalq təşkilatlara, o cümlədən 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmiş, 2019-2022-ci illər üçün 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına sədrlik etməyə başlamışdır;
- Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, silahlı qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində həyata keçirilən ardıcıl tədbirlər nəticəsində Azərbaycan ordusu ölkəmizin müdafiəsini və təhlükəsizliyini təmin etmək qabiliyyətinə malik olan qüvvəyə çevrilmiş, dünyanın ən güclü 50 ordusu sırasında yer almışdır;
- Azərbaycan artıq dünyada sayı məhdud olan kosmik ölkələr sırasına daxil edilmişdir;
- ölkədə sabitlik, sağlam ictimai-siyasi mühit, ən yüksək səviyyəli xalq - iqtidar birliyi yaranmışdır;
- Azərbaycan müstəqil daxili və xarici siyasət yürüdən, müstəqil mövqeyi ilə seçilən dövlət kimi tanınmışdır;
- nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən Azərbaycan həqiqətlərinin etiraf edilməsinə, Dağlıq Qarabağ münaqişəsinə dair milli maraqlarımızı əks etdirən mühüm qərarların qəbul edilməsinə nail olunmuşdur;
- milli-mənəvi dəyərlərin, dini etiqad azadlığının, konfessional və etnik müxtəlifliyin, multikulturalizm və tolerantlıq ənənələrinin qorunub saxlanılması və inkişafı təmin edilmişdir;
- əhalinin sosial müdafiəsi əhəmiyyətli dərəcədə gücləndirilmiş, regionların hərtərəfli inkişafı təmin edilmiş, ölkənin sosial-mədəni və təsərrüfat infrastrukturu tamamilə yenilənmişdir;
- qeyri-neft sənayesi ardıcıl şəkildə inkişaf etdirilmiş, ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edən və müasir texnologiyalara əsaslanan minlərlə yeni müəssisə fəaliyyətə başlamışdır;
- Azərbaycanda demokratik təsisatlar möhkəmləndirilmiş, siyasi plüralizm, söz azadlığı, mətbuat azadlığı, sərbəst toplaşma azadlığı, siyasi fəaliyyət azadlığı, insan hüquq və azadlıqları təmin edilmiş, vətəndaş cəmiyyəti institutları gücləndirilmişdir;
- Azərbaycan Avrasiyada mühüm tranzit və logistika mərkəzlərindən birinə, Cənubi Qafqazda ən böyük istehsal və intellektual potensiala malik ölkəyə, regionun enerji, nəqliyyat, logistika, humanitar dialoq mərkəzinə çevrilmişdir;
- vətənə, dövlətə, dövlətçiliyə, milli-mənəvi dəyərlərə bağlı olan Azərbaycan gəncliyi formalaşmışdır;
- ölkədə səmərəli və çevik dövlət idarəçiliyi mexanizmi formalaşdırılmışdır.

Cənab Ali Baş Komandan, bütün bunlar və burada sadalanmayan bir sıra digər nailiyyətlər son günlər təcavüzkar Ermənistanın ölkəmizə qarşı törətdiyi növbəti təxribatları, xain hücumları qarşısını almaq, əhalimizin təhlükəsizliyinin və beynəlxalq təşkilatlar, dünya dövlətləri tərəfindən tanınan və qəbul edilən ərazi bütövlüyümüzün təmin edilməsi məqsədilə Sizin rəhbərliyinizlə müzəffər Azərbaycan ordusu tərəfindən aparılan əks-hücum əməliyyatlarında hər gün, hər saat əldə edilən qələbə və zəfərlərin əsas rəhnidir, sabaha daha böyük ümidlərlə baxmağa zəmin yaradır. Qısa müddətdə əldə edilən və Böyük Qələbəmiz üçün mühüm əhəmiyyətə malik olan bu uğurların qarşısında xüsusilə son illər öz rəhbərlərinin yarıtmaz fəaliyyəti nəticəsində fəlakətə sürüklənən Ermənistan xeyli cılız və miskin görünür.

Möhtərəm cənab Prezident, Sizin 27 sentyabr və 4 oktyabr tarixlərində xalqımıza etdiyiniz müraciətlərinizdə, "Rossiya-1", "Əl-Cəzirə", "Əl-Ərəbiyə", "TRT Haber" televiziya kanallarına verdiyiniz müsahibələrinizdə, son günlər keçirdiyiniz müxtəlif səviyyəli görüşlərdə dəfələrlə qeyd etdiyiniz kimi, biz haqq-ədalət tərəfindəyik. Biz bu gün tarixi ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik. Xalqımızın və dövlətimizin yeni tarixini yazırıq, şanlı tarixini yazırıq. Biz tarixin ən şərəfli anlarını yaşayırıq. Çünki öz doğma dədə-baba torpaqlarımızı işğalçılardan azad edirik.

Eyni zamanda Siz hələ də xalqımıza xas olan humanizm prinsiplərini əsas tutaraq milli maraqlarımızı əks etdirən yeganə bir şərt irəli sürməklə qarşı tərəfə atəşkəs rejiminin bərpa edilməsi üçün sonuncu bir şans verilməsinin də mümkünlüyünü bəyan edirsiniz. Bunun üçün Ermənistan rəhbərliyi Azərbaycan xalqından üzr istəyərək Azərbaycanın ərazi bütövlüyünü tanıdığını etiraf etməli, qoşunların işğal edilmiş ərazilərimizdən çıxarılmasını əks etdirən vaxt cədvəli təqdim etməli və deməlidir ki: "Qarabağ Ermənistan deyil".

Sizin rəhbərliyinizlə rəşadətli ordumuz tərəfindən işğal altında olan bütün torpaqlarımız tezliklə azad olunacaq, xalqımızın 30 illik intizarına birdəfəlik son qoyulacaqdır.

Biz o günü səbirsizliklə gözləyirik. Əminik ki, o gün mütləq gələcək və o gün bizimlə birlikdə bütün şəhidlərimizin də ruhu şad olacaqdır.

Biz haqlıyıq, biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

Allah Sizi və ordumuzu qorusun!

Allah bizə yar olsun!

**Dərin hörmət və ehtiramla,**

*Aydın Kazımzadə, AMEA-nın müxbir üzvü*
*Məsumə Məlikova, AMEA-nın müxbir üzvü*
*Vasif Babazadə, AMEA-nın həqiqi üzvü*
*Məhəmməd Mehdiyev, AMEA-nın həqiqi üzvü*
*Yusif Məmmədov, AMEA-nın həqiqi üzvü*
*Təhsin Mütəllimov, AMEA-nın müxbir üzvü*
*Elşad Qurbanov, AMEA-nın müxbir üzvü*
*İzzət Rüstəmov, professor*
*Cahangir Məmmədli, professor*
*Həmid Vəliyev, professor*
*Qüdrət İsmayılzadə, professor*
*Tapdıq Həsənov, professor*
*Firuzə Abbasova, professor*
*Ağalar Abbasbəyli, professor*
*Musa Bayramov, professor*
*Məmməd Yaqubov, professor*
*Ralfrid Həsənov, professor*
*Yalçın Əlizadə, professor*
*Məmməd Fətəliyev, professor*
*Şövqisəfa Göyçaylı, professor*

# Həsrət uzandıqca vüsal daha şirin olur...

***Həsrət - bir şeyi və ya birini yenidən görmək, qovuşmaq arzusudur. Yaxın adamından, sevdiyindən ayrılmaq da həsrət sayılır. Amma bir nisgil var ki, bütün bunların fövqündə durur. O torpaq nisgili, vətən həsrətidir. Təəssüf ki, Azərbaycan xalqının taleyinə yurd həsrəti, vətəndə vətənsizlik dərdi ilə yaşamaq da yazılıbmış.***

Mən Azərbaycanımızın İsmayıllı rayonunda anadan olmuşam. Uşaqlığım oranın saf suyu və təmiz hava ilə zəngin dağlarında, dərələrində, çəmənlərində keçib. Bircə il rayonumuza gedə bilməyəndə o yerlər üçün burnumun ucu göynəyir. Doğma yurd-yuvalarından didərgin düşən, illərdir vətən həsrətilə yaşayan soydaşlarımızı bu mənada çox gözəl anlaya bilirəm. Özümü onların yerində təsəvvür edirəm: doğulduğun evə, böyüdüyün, sinəsində boy atdığın, havasını udub, suyunu içdiyin kənd-kəsəyə həsrət qalmağın nə qədər çətin, dözülməz olduğunu təsəvvür edirəm. 30 ilə yaxındır ki, bir milyondan çox həmvətənimiz bu duyğular ilə, ürəklərində torpaq nisgili ilə yaşayıblar. Amma onlar heç zaman ümidlərini itirməyiblər. İnanıblar və inanmışıq ki, dövlətimizin bu yöndə apardığı məqsədyönlü siyasət nəticəsində bir gün vətəndə vətənsizlik dərdi tarixə qovuşacaq.

Həsrət nə qədər uzun olsa da, vüsal dəmi də o qədər şirin olur... Hər qaranlıq gecənin bir işıqlı səhəri olduğu dəyişilməz həqiqətdir. Biz də hər zaman ümid və səbirlə bu həqiqətin təcəlli edəcəyi günü gözləmişik. Nəhayət, belə bir səhər 2020-ci ilin sentyabrın 27-də açıldı. Artıq çoxdan intizarında olduğumuz məqam yetişdi. Mənfur düşmənlərimizin təxribatlarına cavab olaraq Ali Baş Komandan ordumuza əks-hücuma keçməklə bağlı əmr verdi. Qısa müddətdə layiqli cavab alan erməni terrorçuları ordumuzun və dövlətimizin nəyə qadir olduğunu gördü.

Ermənistan silahlı qüvvələrinin sentyabrın 27-dən başlayan təxribatlarının qarşısını almaq, 30 ilə yaxın işğal altında saxlanılan torpaqlarımızın azad edilməsi və mülki əhalinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə Ali Baş Komandanın əmri ilə Azərbaycan ordusunun bütün cəbhə boyu əks-hücum əməliyyatına başlamasını bütün Azərbaycan xalqı çoxdan gözləyirdi. Bir həftədən çoxdur hər səhər çalışdığım doğma Universitetə gələndə hər kəsin gözündən, üzündən sevinc, dilindən dua yağır. Əməkdaşlar bir-birini təbrik edir, gənclər artıq Füzulidə, Cəbrayılda, Ağdərədə, Kəlbəcərdə dalğalanan, yaxın günlərdə isə Şuşada, Laçında, Xankəndində, Xocalıda, Xocavənddə, Ağdamda, Qubadlıda, Zəngilanda dalğalanacaq bayraqları Universitetin divarlarından asıblar. Doğma Universitetimin rektorundan tələbəsinə qədər hər kəs sevinclidir, qürurludur. Hamı bir nəfər kimi Ali Baş Komandanımızın - cənab Prezidentimiz İlham Əliyevin, qüdrətli ordumuzun yanında olduğunu ifadə edir. Ali Baş Komandanımızın sərkərdəliyi ilə şanlı ordumuzun düşmənə vurduğu sarsıdıcı zərbələr, uğurlu döyüş əməliyyatları, qazanılmış qələbələr bizi bütün tarixi torpaqlarımıza hər saat, hər an daha da yaxınlaşdırır.

Cəbhədə yaşananlar, Şanlı Ordumuzun düşmənə göz açdırmaması bizə ümid və əminlik verir ki, tezliklə torpaq, yurd nisgili yaşayan həmvətənlərimiz də öz doğma evlərinə, obalarına qayıdacaqlar. Buna qətiyyən şübhəmiz yoxdur ki, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında bir yumruq kimi birləşən Azərbaycan xalqı erməni qəsbkarlarını o müqəddəs yurd yerlərimizdən çıxarıb, onu həqiqi sahiblərinə təhvil verəcəkdir. Bu ali, bu müqəddəs işdə uca Allah Şanlı Ordumuzu müzəffər etsin, xalqımızı sevinclərin ən alisi ilə sevindirsin!

***Samir Mirzəyev,***
***Jurnalistika fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini***

# Gününü laboratoriyada keçirən alim



Abdulla Qarayev

**1944-cü il mayın 3-dən 1950-ci ilin oktyabrına kimi BDU-nun rektoru Abdulla İsmayıl oğlu Qarayev olub. O, bu vəzifəni icra etməyə başlayandan bir il sonra müharibə bitsə də, universitetin dinc şəraitdə ilk inkişaf illəri olduqca çətin keçib və bu çətinliyin aradan qaldırılmasına var gücü ilə çalışan Abdulla Qarayev kim idi və buna nail ola bildimi?**

***Abdulla Qarayev 1910-cu ildə Bakıda anadan olub. 10 nömrəli məktəbdə ilk təhsilini alan Abdulla 1927-ci ildə Bakı Pedaqoji Texnikumunu (o zaman Bakı Xalq Maarif Şöbəsinin Pedaqoji Texnikumu adlanıb) bitirib. Həmin il BDU-nun pedaqoji fakültəsinin təbiət bölməsinə daxil olan Abdulla 1930-cu ildə əla qiymətlərlə təhsilini başa vurub.*** O, 1932-1936-cı illərdə Azərbaycan Dövlət Tibb İnstitutunda oxuyub. Bir il sonra 1937-ci ildə iki mövzu üzrə müdafiə edən A.Qarayev "Sulu karbonların əzələlərin potensiallarının mənşəyində əhəmiyyəti" mövzusunda yazdığı elmi işə görə tibb elmləri namizədi, "Diafraqmanın fiziologiyasına dair" mövzusundakı dissertasiyasına görə isə biologiya elmləri namizədi elmi adına layiq görülüb.

Gənc alim 1938-ci ildə "Kurortologiya və Fiziki Üsullarla Müalicə İnstitutunun nəzdində yaradılan laboratoriyaya rəhbərlik edib. Birbaşa onun rəhbərliyi ilə ilk dəfə Naftalan neftinin, Azərbaycanın şəfaverici sularının və dərman bitkilərindən hazırlanan preparatların insan orqanizminə müalicəvi təsirinin öyrənilməsi istiqamətində işlər aparılıb. Bununla A.Qarayev dünyada yeganə müalicəvi əhəmiyyətə malik olan neftin (naftalanın) təsirinin öyrənilməsi sahəsində eksperimental-fizioloji laboratoriyanın yaradıcısı olmuşdur. Vaxtının çoxunu laboratoriyada keçirən, sınaq işləri aparan mütəxəssis daha böyük nailiyyətlərə imza atmaq arzusunda idi. Bu istəklə də 1940-cı ildə "Bioelektrik hadisələrin nəzəriyyəsinə dair" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Onun bu uğuru o zaman elmi ictimaiyyət arasında böyük ruh yüksəkliyi ilə qarşılanır. Cəmi 30 yaşında olan gənc alim bu nailiyyətləri ilə tibb aləmində bir çox ilklərə imza atır.

A.Qarayev sənətinin vurğunu idi. O, tibbin açılmamış səhifələrini öyrənmək üçün dünya alimlərinin əsərlərindən bəhrələnir, beynəlxalq konqreslərdə iştirak edir, laboratoriyada sınaqlar aparırdı. Nəzəriyyə ilə təcrübənin vəhdət təşkil etdiyini yaxşı dərk edən alim bilgilərini tələbələrinə öyrətmək, onları daha mükəmməl mütəxəssis kimi yetişdirmək üçün pedaqoji fəaliyyətə üstünlük verməli olur. Bu münasibətlə "1942-ci ildə müsabiqə yolu ilə Azərbaycan Dövlət Tibb İnstitutunun "Normal fiziologiya" kafedrasında ikinci professor və Azərbaycan Dövlət Universitetinin "İnsan və heyvan fiziologiyası" kafedrasının müdiri vəzifəsinə seçilir. Artıq bu zaman A.Qarayevin hər iki ali məktəbdə "Sinir və əzələ fiziologiyası", "Tənəffüsün fiziologiyası", "Həzm və sorulmanın fiziologiyası", "Endokrinologiya" adlı əsərlərindən tələbələri istifadə edirdilər. 200-dən çox elmi məqalənin və 6 dərsliyin müəllifi olan A.Qarayevin əsərləri bu gün də öz aktuallığını itirməyib. Tibb elmi üzrə irəli sürdüyü dəyərli fikir və mülahizələri hər zaman gənc tibb mütəxəssislərinin maariflənməsinə yardımçı olur.

***1941-ci ildən müntəzəm olaraq BDU-da çalışmağa başlayan A.Qarayev 1941-1943-cü illərdə universitetin Biologiya fakültəsinin dekanı, 1943-1944-cü illərdə elmi işlər üzrə prorektoru və 1944-1950-ci illərdə isə rektor vəzifələrində çalışmışdır.***

A.Qarayevin BDU-ya rəhbərlik etdiyi illər əsasən müharibədən sonrakı ilk beşilliyə təsadüf etsə də, universitet üçün çətin illər olub. 1948-ci il noyabrın 16-da AK (b) P MK bürosu universitetin rektoru professor A.Qarayevin məruzəsini dinləyib universitetin işini yaxşılaşdırmaq tədbirləri haqqında qərar qəbul etdi. Rektor 1949-cu il 7 yanvar tarixli xüsusi əmrində siyasi-tərbiyə işini yaxşılaşdırmağa dair göstəriş verdi və onun yerinə yetirilməsini məsul şəxslərə həvalə etdi. Burada əsas məsələ universitet kollektivinin ideya-siyasi hazırlığını, siyasi-tərbiyə işini, Marksizm-Leninizm təliminə uyğun olaraq yenidən daha yüksək səviyyədə qurmaq idi. Hətta 1949-cu ilin aprelində AK (b) P MK bürosunun iclasında S.M.Kirov adına ADU-nun Marksizm-Leninizm əsasları kafedrasının işini yaxşılaşdırmaq haqqında əmr verilir və əmr təcili olaraq BDU-da müzakirə edilir. Tədris planları, proqramları ciddi surətdə nəzərdən keçirilib dəyişdirilir, yeni ab-havaya uyğun olaraq ictimai elmlərin (Marksizm-Leninizm əsasları, fəlsəfə, siyasi iqtisad) tədrisinə diqqət və nəzarət gücləndirilir. Bir sözlə, bütün fənlər (hətta kimya, fizika, riyyaziyyat və s.) Marksizm-Leninizmləşdirilir. Öz elmi fəaliyyətində yalnız Moskvadan asılı olan BDU (əvvəlki məqalələrdə qeyd etdiyimiz kimi) sosializm uğrunda çarpışan mübarizlər ştamplayan emalatxana rolunu davam etdirir.

Hələ 1942-ci ildə BDU-da yoxlama aparan Azərbaycan K(b) P MK-nın komissiyası universitetin partiya təşkilatının işində ciddi nöqsanlar aşkarlamış və tənqid etmişdir. BDU-nu tənqid edən rəhbərlər yekdiliklə belə fikrə gəlmişlər: Partiya öz aparatını özünə tabe etməlidir, mərkəzləşdirilmiş təşkilat olmağı bir an belə unutmamalıdır. Partiya da (əvvəl bolşeviklər, sonra kommunistlər) sosial cəza etikasını təbliğ edərək onu sevməyənlərə qarşı cismani və psixoloji terrora keçdi və hər şey partiyalaşaraq, siyasiləşdi. Beləliklə, ölkəmizdə cəmiyyətin başdan-başa siyasiləşməsi illər boyu neytral (və normal) həyatı öldürdü. Və bəşər tarixində ilk dəfə idi ki, düşüncə və duyğular çarmıxa çəkilirdi.

"SSRİ-nin Elm Xadimi" adına layiq görülən görkəmli alim Abdulla Qarayev də BDU-ya belə bir zamanda rəhbərlik etsə də, universitet həyatında yeniliklər də edə bilib. 1948-1949-cu dərs ilində universitetdə 7 yeni kabinet və laboratoriya təşkil edildi. 1945-1946-cı tədris ilində tarix fakültəsi nəzdində fəlsəfə şöbəsi açıldı. Növbəti il isə filologiya fakültəsinin şərqşünaslıq şöbəsi müstəqil fakültəyə çevrildi. 1950-ci illərin ortalarında universitet ölkədə ən güclü elmi mərkəzə çevrildi.

1950-ci ilin sonlarından ömrünü daha çox tibb elminin inkişafına həsr edən Abdulla müəllim 1953-cü ildə Zoologiya İnstitutunun nəzdində fiziologiya şöbəsinin açılmasına nail olur. Üç il sonra isə bu şöbənin nəzdində Azərbaycan Elmlər Akademiyasında müstəqil fiziologiya bölməsi yaradılır və bölməyə Abdulla müəllim rəhbərlik edir. 1968-ci ildə Bakıda dünyasını dəyişən A.Qarayev bu gün də qədir bilən xalqın yaddaşında əsasən istedadlı alim kimi yaşayır və yaşayacaqdır.

***Qərənfil Dünyaminqızı,***
***Milli mətbuat tarixi kafedrası, dosent***

# Milli birlik və siyasi həmrəylik - Qələbəyə aparan yol

*(əvvəli 4-cü səhifədə)*

Qonşu ərazisinə göz dikən, onu amansızlıqla işğal edən, dinc əhalini qətlə yetirən Ermənistanın təxribatlarına susmaqla, onun işğalçılıq siyasətinə göz yummaqla dünya siyasətinə təsir göstərmək iqtidarında olan nüfuzlu təşkilatlar beynəlxalq riyakarlığa və ikili standartlara imza atmış olurlar. Xüsusilə Minsk Qrupu həmsədrlərinin yarıtmaz fəaliyyəti 30 ildir davam edən işğala qarşı heç bir ciddi tədbirlərin görülməməsi regionda sülhün təmin olunmasına ciddi maneə yaratmış, münaqişənin həllinin uzanmasına rəvac vermişdir.

BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi illərdir ki, təcavüzkar Ermənistan tərəfindən yerinə yetirilmirsə, işğalçı ölkə öz adı ilə çağırılmırsa, beynəlxalq hüquq işləmirsə, şablon bəyanatların verilməsinin bizim üçün artıq heç bir əhəmiyyəti qalmamışdır. Ermənistan qoşunları dərhal və qeyd-şərtsiz Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmalıdır. Ermənistanın hərbi siyasi rəhbərliyində olan insanlar nəhayət öz məsuliyyətlərini başa düşməlidir. Onlar anlamalıdır ki, bu işğala görə şəxsən məsuliyyət daşıyırlar. Yalnız ondan sonra atəşkəs rejiminin bərpasından söhbət gedə bilər. Bu Azərbaycanın qəti və dəyişməz mövqeyidir. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev bu barədə dəfələrlə beynəlxalq platformalarda, nüfuzlu xarici media qurumlarına müsahibələrində öz qəti fikrini bildirmiş, Ermənistan rəhbərliyinin çirkin və terrorçu siyasətinin mahiyyətini konkret faktlarla ifşa etmişdir.

4 oktyabr tarixində cənab Prezidentin xalqa müraciəti ilə bağlı tarixi çıxışı hər bir azərbaycanlıda qürur hissi oyatmaqla yanaşı, cəmiyyətimizdə qələbə əzmini daha da genişləndirdi. ATƏT-in Minsk Qrupunun faydasız fəaliyyətinə, bəzi beynəlxalq təşkilatların münaqişə ilə bağlı ədalətsiz mövqeyinə, Avropa İttifaqının laqeyd və ikili münasibətinə, Paşinyanın sərsəm açıqlamalarına, qondarma rejimin Azərbaycanın işğal edilmiş torpaqlarında qanunsuz fəaliyyətinə xüsusi toxunan Prezident İlham Əliyev Azərbaycan xalqının iradəsinin sarsılmaz olduğunu, təcavüzlə heç bir zaman barışmayacağımızı, Azərbaycanın tarixi ərazilərində ikinci Erməni dövlətinin yaranmasına imkan verməyəcəyimizi açıq şəkildə dünyaya bəyan etdi.

Bu gün Vətən torpaqlarının düşmən tapdağından azad edilməsi uğrunda savaş gedir. Azərbaycan xalqı və ölkənin siyasi partiyaları yekdilliklə Prezidentin yanındadırlar. Bu, ölkəmizdə milli və siyasi həmrəyliyin parlaq göstəricisidir. Birlik, həmrəylik və yekdillik Azərbaycanın Qələbəsini təmin edəcək, Cənubi Qafqaz regionunda sülhü və əmin-amanlığı bərqərar edəcəkdir.

*Qələbə bizimlədir!*
*Qarabağ Azərbaycandır!*

***Ramin Səmədov,***
***Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri***

# BDU-nun Qazax filialı Silahlı Qüvvələrə Yardım Fonduna 10 min manat vəsait köçürüb

Sentyabrın 27-dən başlanan erməni təxribatına qarşı Azərbaycan Ordusunun həyata keçirdiyi əks-hücumlar xalqımızda böyük ruh yüksəkliyi yaradıb. Ordumuza dəstək vermək, əsgər və zabitlərimizə kömək olmaq üçün hər bir Azərbaycan vətəndaşı öz köməyini əsirgəmir. Bu məqsədlə xalqımız döyüşən Azərbaycan Ordusuna maddi və mənəvi cəhətdən dəstək göstərir, böyük qələbənin qazanılacağı günün daha da yaxınlaşmasına dayaq olurlar. Bu məqsədlə Azərbaycan Respublikasının Silahlı Qüvələrə Yardım Fonduna ianələr köçürülür.

Bakı Dövlət Universitetinin Qazax filialı da ordumuza dəstək məqsədilə Azərbaycan Respublikasının Silahlı Qüvələrə Yardım Fonduna 10 min manat vəsait köçürüb. Filialdan bildiriblər ki, ölkəmizin ərazi bütövlüyünün təmin olunması üçün Vətən savaşına qalxan Azərbaycan Ordusunun qısa müddət ərzində qazandığı uğurlar xalqımızda böyük ruh yuksəkliyi yaradıb. Cəbhə bölgəsində bir-birinin ardınca qazanılan tarixi uğurlar, uzun müddətdən sonra işğaldan azad edilən rayon və kəndlərimiz Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğalına son qoyulacağına inamı daha da möhkəmləndirib.

BDU-nun Qazax filialının rəhbərliyi və əməkdaşları da bu vacib günlərdə ölkəmizin müdafiəsi, vətəndaşlarımızın təhlükəsizliyi naminə mübarizədə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin, xilaskarlıq missiyasını həyata keçirən Azərbaycan Ordusunun yanında olduğunu vurğulayır və müqəddəs məqsəd üçün bütün imkanları səfərbər etməyi vacib hesab edirlər.

# "Qarabağın azadlığı üçün tarixi şərait yaranıb" - Müsahibə

**Bakı Dövlət Universitetinin Erməni araşdırmaları elmi-tədqiqat və tədris Mərkəzinin Böyük elmi işçisi İsmayıl Tanrıverdi cəbhə zonasındakı əməliyyatlarla bağlı Teleqraf.com-un suallarını cavablandırıb.**

**Həmin müsahibəni təqdim edirik.**

***- İsmayıl müəllim, uğursuz Tovuz döyüşlərindən sonra Ermənistan nə üçün sakitləşmədi, əksinə 27 sentyabrdan etibarən yenidən Azərbaycana qarşı təxribata əl atdı?***

- Tovuz döyüşləri ərəfəsində Paşinyanın reytinqi vaxtilə məğlub etdiyi rəqibi Sarkisyanın o zamanki reytinqindən də aşağı idi. Reytinqini qaldırmaq üçün Latviya, Litva müdafiə nazirləri ilə danışıb, onlardan snayper qızlar istədi ki, sərhədə toplasın. Armen Sarkisyanı 102-ci orduya, Gümrüyə göndərib, oradan topçular dəvət etdilər. Muzdlu kiçik bir ordu yaratdılar ki, Tovuz tərəfdən hücum edərək heç olmasa kiçik bir qələbə qazansınlar. Rusiyanın başçılıq etdiyi Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını da (KTMT) müharibəyə cəlb etmək istəyirdilər. Müharibəni Qarabağda yox, Ermənistanla Azərbaycan arasındakı dövlət sərhədində davam etdirmək istəyirdilər ki, KTMT məcbur olub məsələyə qarışsın. Amma bu alınmadı. Düşmən istəyinə nail ola bilmədi.

***- Düşmən 27 sentyabrdan etibarən yenidən Azərbaycana qarşı təxribatlara başlayıb. Ölkəmiz həmin təxribatların qarşını alıb və əks-hücum əməliyyatlarına başlayıb. Gedişatı necə qiymətləndirirsiniz?***

- Bu, bizim haqqımızdır, öz torpaqlarımızda mübarizə aparırıq. Tarixi şərait yarandığına görə bundan istifadə etməsək, hər şey əlimizdən gedəcək.

***- Beynəlxalq təşkilatlar, bir sıra dövlətlər Azərbaycanı sülh danışıqlarına çağırır. Ölkəmiz belə bir vəziyyətdə bu çağırışlara necə reaksiya verməlidir?***

- BMT sülh danışıqlarına çağırır, lakin bunu vaxtında fikirləşməli idi. BMT 4 qətnamə qəbul etmişdi ki, Ermənistan ordusu Qarabağdan qeyd-şərtsiz çıxmalıdır. Bəs onu niyə yerinə yetirmədi? Qısa zaman kəsiyində heç olmasa Qarabağın əksəriyyətini geri qaytarmalıyıq. Əməliyyatları dayandırmaq olmaz. Onlar başa düşməlidirlər ki, Azərbaycan hansı gücə malikdir.

***- Əməliyyatlarla bağlı erməni mətbuatı real vəziyyəti yazır?***



- Qarabağ bölgəsindəki separatçı-terrorçuların lideri Araik Arutyunyan canlı mətbuat konfransı keçirib heç bir kəndin əldən getmədiyi kimi səfeh informasiyalar verib. Ermənistan əhalisini ruhdan salmamaq üçün Azərbaycana qarşı iftira atırlar. İddia edirlər ki, "Bordo Bereliler" adlanan Türk xüsusi təyinatlıları Azərbaycanda vuruşur. Guya ki, Azərbaycan ordusu vuruşmağı bacarmır, onların təyyarələrini vurduğumuzu iddia edirlər. Hazırda ermənilər könüllülərin toplantısını keçirir, yardıma gedirlər. Əslində isə könüllülərin çoxu qaçırlar və bilirlər ki, Azərbaycan ordusu sona qədər gedəcək.

***- Ölkəmizdə internetin verilməsində müəyyən məhdudiyyətlər var. Bu qərarı necə qiymətləndirirsiniz?***

- Bunu daha əvvəl baş verən münaqişələrdə də etmək lazım idi. Çünki saxta təbliğat aparıb, dezinformasiya yayanların sayı çoxdur. Həm də erməni təbliğatının qarşısını almaq lazımdır. Mən izləyirəm, ermənilər özlərini qəhrəman kimi qələmə verib, məğlub olmayacaqlarını yazırlar. Mən bilirəm ki, bu yalandır, amma inananlar da var. Bu səbəblə internetə girişdə məhdudiyyətlərin tətbiq olunması düzgün qərar oldu.

***- Hazırkı vəziyyətdə düşmənə qarşı doğru informasiya müharibəsi apara bilirikmi?***

- Müharibənin qanunları var. Düşmən yalan məlumatlar verirsə, o demək deyil ki, biz də belə etməliyik. Onu da deyim ki, bizdə itkilərimizlə bağlı geniş məlumatın verilməməsi müharibənin qanunlarına uyğundur və belə davam etməliyik. Biz açıq desək ki, 100 nəfər şəhid olub, bu, ruh düşkünlüyü yaradacaq. Bu səbəblə belə məlumatları daha sonraya saxlamaq lazımdır.

***- Rusiya ilə İran hazırda ehtiyatlı mövqe sərgiləyir. Türkiyə isə açıq şəkildə Azərbaycanı müdafiə etdiyini bildirir. Bəs Qərb ölkələrinin yanaşması necədir?***

- Qərb ölkələrindən erməniləri ən çox dəstəkləyən Fransadır. Müharibənin ikinci günü, 28 sentyabrda Paşinyan hiss etdi ki, ordumuz güclüdür. İlk olaraq Rusiyanın Prezidenti Vladimir Putinə zəng etdi. Putin təbii ki, indiyə qədər Paşinyanın şıltaqlıqlarına dözürdü. Bu dəfə də Paşinyana bildirdi ki, rahat ol, müharibəni yaxın zamanda dayandıracağıq. O da istəyir ki, Azərbaycan erməniyə "sillə" vursun və Ermənistan Putinə yalvarmağa başlasın. Ondan sonra Fransanın Prezidenti Emmanuel Makrona zəng edib dəstək istədi, müharibəni dayandırmalarını xahiş etdi. Makron da ilk olaraq Türkiyə Prezidenti Ərdoğanla danışdı, Ərdoğan ona cavab verdikdən sonra isə, Makron İlham Əliyevə zəng etdi. Ali Baş Komandan da ona izah etdi ki, Minsk Qrupu illərdir gəlib-gedir, ortada heç nə yoxdur. Biz öz torpağımıza qayıtmalıyıq.

***- Vladimir Jirinovski bildirib ki, Qarabağ Rusiyaya verilsin və hər iki tərəf sakitləşsin. Nə üçün Rusiya tərəfdən belə fikirlər səsləndirilir?***

- Guya ki, Türkmənçay müqaviləsi zamanı Qarabağ Rusiyaya verilib və Rusiya bu müqaviləni iddia edərək Qarabağı özünə tabe edəcəyini düşünür. Amma hazırda Rusiyanın bu addımı atacağını düşünmürəm. Çünki, Qarabağ tarixən Azərbaycanındır. Ermənistanın əsas düşməni onların Ukraynadakı tarixçisi Filip Bekozyandır. O hər zaman ermənilərə müraciət edərək bildirir ki, sizin Türk və Azərbaycan adında düşməniniz yoxdur. Sizin ən böyük düşməniniz saxta tarixinizdir. Əgər ermənilər əsl tarixlərinə dönsələr, başa düşəcəklər ki, onların dövləti və dövlətçilik ənənələri yoxdur. Onlar daima ayrı-ayrı dövlətlərin əlinin altında yaşayıblar. Hətta ermənilərin hərflərinin efiopiya əlifbası olduğu təsdiqlənib. Azərbaycan tarixçilərinin əsas məqsədi bütün dünya tarixçiləri ilə əlaqə yaradıb, ermənilərin saxta tarixini üzə çıxarmaq olmalıdır.

***- Təcavüzkar, cılız dövlət olduğunu bilə-bilə niyə hələ də bəzi ölkələr Ermənistanı dəstəkləyir?***

- Ermənilərlə çox az müddət birlikdə yaşasaydınız, siz də deyərdiniz ki, onlar doğurdan da çox yazıq millətdir. Onlar yaltaqlığı bacarırlar. İstənilən yerdə hansısa savadsız erməni qadın tez uydurma tarixindən danışmağa başlayır. Mən hazırda erməni dilindən dərs deyirəm, onlar yazılan məqaləni həqiqət kimi danışırlar. 30 il ermənilərin arasında yaşamışam, onların arasında "Posa" adlanan millət var. Ermənilərin əsl tayfaları onlardır. Onlar hər zaman ev əşyaları düzəldib satırlar. Əgər kimsə satdıqları məhsulun qiymətində endirim etmək istəsə, həmin pulu almadan əl çəkmirlər. Ermənilər o millətdən yaranıblar, lakin başqa millətlərlə evlənmələri sayəsində artmağa başlayıblar. Bu gün erməni mətbuatında onların Azərbaycana qarşı yazdıqları məqalələrə şərh yazıb, cavab verən tək ermənişünas mənəm. Bəzən xaricdə yaşayan ermənilər də fikirlərimi təsdiqləyirlər.

***- Düşmənlə mübarizə aparmaq üçün onun dilini bilmək vacibdir. Ölkəmizdə nə üçün kütləvi şəkildə erməni dili tədris olunmur?***

- Ötən əsrin əvvəllərinə qədər ermənilərin ikinci ana dili Türk dili olub və bunu özləri də bilirlər. Onlar yaxşı erməni və türk dilində danışıblar. Münaqişələr başladıqdan sonra türklərin onlara yaratdığı şəraitdən istifadə etməyə başladılar. Ermənilər yedikləri qaba tüpürən millətdir. "Biz nəyə görə türkün əlinin altında yaşayırıq? Yaxşısı budur, onlar bizə tabe olsunlar" iddiasını irəli sürdülər. Erməni odur ki, hazırda bizim 20 faiz torpağımızı işğal edib. 1988-ci illərdə bəzi hadisələrdə erməninin dilini bilmədiyimiz üçün bizə qalib gəldilər. Bu hadisələrdən biri də Daşaltı əməliyyatıdır. Əgər həmin əməliyyatda uduzmasaydıq, səhəri gün Şuşanı itirməzdik. Şuşa ona görə əldən getdi ki, biz erməni dilini bilmirdik. Erməninin Azərbaycan dilində bilən bir qrup dəstəsi radiasiya vasitəsilə içimizə daxil olub, bizi dinləməyə başlamışdı. Hazırkı vəziyyətdə erməni dilini bilməyimiz çox vacibdir. İstənilən müharibədə düşmənin dilini bilmədən ona qalib gəlmək mümkün deyil, bu, tarixi faktdır.

## Qarabağa doğru

*İkurs yay imtahanlarımızı yeni bitirmişdik. Qarşıda bizi - Filologiya fakültəsinin tələbələrini folklor praktikası gözləyirdi. Müəyyən edilmiş vaxtda BDU-nun həyətində toplaşdıq. Müəllimlərimiz professor Nizami Xəlilov, dosent Məhəmməd Məmmədov bizə müxtəlif ərazilərə gedəcəyimizi, nənə və babalardan şifahi xalq ədəbiyyatı nümunələri toplayacağımızı bildirdilər. Ahıllarla ünsiyyət zamanı diqqətli olmağı tapşırarkən vurğuladılar ki, yaşlı olduqlarından əlavə, onların vətənlərindən didərgin düşdüklərini, Qarabağ həsrətinin onları daha da həssas etdiyini də unutmayın.*

Müraciətlərimizdə nə qədər ehtiyatlı davransaq da, onlar vətən deyib ah çəkdilər, söylədikləri bayatılarda Qarabağı gözüyaşlı dilə gətirdilər, onu bayatılarda oxşadılar, körpətək əzizlədilər, ağı deyib nalə çəkdilər, xalqın müdriklik xəzinəsinə müraciət etdikcə: "yaddan çıxmaz Qarabağ", - dedilər.

Bir qocanın isə gözləri yol çəkirdi. Dedilər ki, müəllimdir, bu məqamla heç cür barışa bilmir. Yaxınlaşdıq, ancaq qoca nümunələr söyləmədi, bildirdi ki, bütün fikri, nəğməsi, bayatısı, əfsanəsi, rəvayəti Qarabağda qalıb. Gözlərini yoldan çəkmədən: "necə dilə gətirim, həsrətdən içim yanır, desəm, dilim yanar, yurdumda didərginəm, Cəbrayıla qayıdarıq deyərəm", - dedi.

Həmin gün neçə qoca ilə ünsiyyətdə olub çoxsaylı nümunələr topladıq, ancaq onun yola dikilmiş baxışları və bizə cavabı yaddaşıma yazıldı, Qarabağımızın işğaldan azad olunmasını, qocanın, onun timsalında xalqımızın həsrətinin sona çatmasını, doğma yurda qovuşmasını bir daha arzuladım.

28 ildir ki, Qarabağla nəfəs alan xalqımız xəyalında, röyalarında ona doğru yol gedir. Çünki qəlbi, təfəkkürü ona - doğma yurda bağlıdır. Vətən həsrəti yüklərin ən ağırıdır və illər keçdikcə daha da ağırlaşır. Bu həsrət ona qazandığı uğurları ürəkdolusu yaşamağa imkan verməyib. Sevinci də natamamdır, kölgəlidir.

Oktyabr ayının ilk günlərində qeyd edilən oktyabrın 1-i Beynəlxalq Ahıllar Günü, sülh, dözümlülük anlayışını və zorakılıqdan imtina mədəniyyətini insanlara çatdırmaq məqsədilə qeyd edilən oktyabrın 2-si Beynəlxalq Qeyri-Zorakılıq Günü, oktyabrın 5-i Müəllimlər Günü ona da aiddir. O ahıldır, müəllimdir və mənfur ermənilər tərəfindən zülmə məruz qalıb. Məhz sonuncu - doğma torpağın işğalı, yurdunun talanması, xalqının zülmə məruz qalması ona bütün bayramları unutdursa da, vətəni unutdura bilməyib. Bir gün də doğma yurda qayıdacağına şübhə etməyib, onu yalnız qəlbində, yaddaşında yaşatmayıb, yaddaşlara həkk edib: "O torpaqlar doğma məkanımızdır. Qarabağ əzəli torpağımızdır. Orada nəinki bizlər, ulu babalarımız dünyaya göz açıb, yaşayıb-yaradıb. Biz ora qayıtmağa, doğma torpaqlarımızı işğaldan azad etməyə borcluyuq və bunu edəcəyik. Bir gün bu millətin səbr kasası daşacaq ".

Nəhayət ki, o an yetişdi. Bu gün həmin gündür və ilahi ədalət bərpa olunur. Bu gün onun, həmçinin torpağına qəlbən bağlı olan hər bir vətəndaşın günüdür. Oktyabrın 3-ü Suqovuşanın, 4-ü Cəbrayılın, 9-u Hadrut qəsəbəsinin, 17-si Füzulinin, digər ərazilərimizin işğaldan azad olunması ilə soydaşlarımz yurduna qayıdacaq, doğma məkan körpə gülüşləri ilə isinəcək. Ən böyük bayram isə Qarabağımızın bütövlükdə azad olunduğu gün olacaq və həmin məqamdan ahıllarımız oktyabrın ilk gününün bayram sevincini ürəkdolusu duyacaq, zorakılığa son qoyulacaq, müəllimlərimiz oktyabrın 5-i Beynəlxalq Müəllimlər Gününü fərəhlə qeyd edəcək. Mənfur ermənilərin xarabazarlığa çevirdiyi məkan bərpa ediləcək, torpaq doğma əllərin nəvazişi ilə sevinəcək, onu sevən xalqımızı gözəlliyi, bərəkəti ilə sevindirəcək. Şanlı ordumuzun azad etdiyi torpaqlarımızda 18 oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günü və digər bayramlarımız vətən həsrətinin izi olmadan qeyd ediləcək.

***İlahə Dadaşova,***
***Filologiya üzrə fəlsəfə doktoru***

# Əsgər anası olmaq....

## *Səngərdə düşmənlə üz - üzə döyüşən əsgərlərimizə ithaf olunur*



***Ailədə üç oğul böyüyür. Ali təhsilini başa vuran böyük oğul əsgərliyə yola düşdü. O oğul ki, illər öncə onun doğum xəbərini də atası elə səngərdə alıb, sevindiyindən ağlamışdı.***

İndi o, səngərdədi, vətənin müdafiəsi üçün hər şeyə hazırdı. Onun hərbi xidmətə gedişi ilə xanım, qadın, ana adının önünə yeni bir epitet əlavə olundu. Əsgər anası... Əsgər anası olmaq həsrətdir, özləmdir, duadır, bir hekayədir.

Əsgər anası olmaq şərəfdir, qürurdur... Gizlində ağlayıb, aşkarda gülməkdir..

Əsgər anası olmaq hər dəfə oğlunun əsgərlikdə olduğunu unudub, hər dəfə masaya onun üçün də yemək çəkməkdir... Ləziz bir təam yeyərkən oğlunu xatırlayıb, udqunmaqdır...

Əsgər anası olmaq kimsəyə əyilməməkdi, başını dik tutmaqdı, bir əsgər görüncə yolda bağrına basmaqdı, üç rəngli bayrağı görüncə gözləri dolmaqdı, himni dinləyincə kövrəlməkdi....

Əsgər anası olmaq məsuliyyətdir.... səngərdə duran oğlunun vətəni qorumaq çabasına, əzminə şərik olmaqdı... məsuliyyətini bölüşməkdi...

Əsgər anası olmaq dəyanətdi, möhkəm duruşu ilə övladlarına ruh verməkdi..

Əsgər anası olmaq sevməkdi.... vətəni, milləti, oğullarının yatıb - qalxdığı səngərləri sevməkdi... Boyunlarını yandıran günəşi, əyinlərini isladan yağışı, əllərini donduran şaxtanı içdən, iliyinə qədər duymaqdı...

Əsgər anası olmaq vətəni, milləti üçün hər şeyi gözə almaqdı.... gözü açıq yatmaqdı...

Əsgər anası olmaq bütün əsgərləri öz övladı bilməkdi, qələbəni hamıdan çox gözləməkdi....

Əsgər anası zümzümə etdiyi bütün xalq mahnılarını unudar...Elə dodağının altında “Ey qəhrəman övladı şanlı vətəni....” kəlmələrini sürəkli təkrar edər...

Haydı irəli!!! Uzun boylu, məsum üzlü igidlərim!!!

Tanrı sizlərlədi....

Sizləri ürəkdən tərənnümlə salamlayıram, qarşınızda bir ana və bir vətən övladı olaraq baş əyirəm...

Allaha əmanət olun nur üzlü igidlərimiz...

***Vəzufə Xudiyeva,***
***Biblioqrafiyaşünaslıq kafedrasının əməkdaşı***

# Milli-siyasi iradədən hərbi qüdrətə doğru

***Bu günlərdə polad iradəli Azərbaycan ordusu sözün əsl mənasında şərəfli tarix yazır. Hər kəsə məlumdur ki, tarixən mənfur düşmənimizin bizə qarşı eksponsionist mövqeyi bizim üçün hər zaman ağır nəticələrlə yadda qalıb.*** Təkcə son iki əsrdə baş verən tarixi hadisələrə nəzər salsaq, bütün bunları aydın görə bilərik. Tarixi torpaqlarımızın bölüşdürülməsindən tutmuş, xalqımıza qarşı törədilən ötən əsrin əvvəllindəki soyqırımlara, azərbaycanlıların öz etnik torpaqlarından deportasiyasına, əsrin sonundakı Qarabağ müharibəsinə, o cümlədən silahsız xalqa qarşı terrora qədər bütün prosseslər buna nümunədir.

Bu gün isə Azərbaycan artıq hansısa münaqişənin zəif tərəfi olan və ya hansısa qlobal gücün protektoratı olan bir dövlət deyil. Bunun da bariz nümunəsi qüdrətli respublikamızın hazırda dünyada öz mövqeyini istənilən siyasi və hərbi güc qarşısında istənilən səviyyədə və formada bəyan edə bilən bir dövlətə çevrilməsidir. Bu fikir bu gün gedən döyüşlərdə bir daha öz əsasını tapdı. Bu isə təbii ki, ölkə başçımızın siyasi mövqeyindən asılıdır. Hələ müharibə başlamamış beynəlxalq ictimaiyyət qarşısında Ali Baş Komandan düşməni təkbaşına məğlub etməyi bacarıb. Bu müharibə ilə də ordumuz döyüş meydanında düşməni yerinə oturda bilib. Ümumilikdə bu müharibə xalqın milli birliyini daha da gücləndirib. Cənab Prezidentin xalqa ilk müraciətindən sonra Azərbaycan xalqı bu yolda səfərbərdir. Çünki xalq öz rəhbərinə inanır və düşüncəsindən asılı olmayaraq bütün vətənsevərlər bu yolda birləşib. Bu ilkin formada elə ölkədə fəaliyyət göstərən 52 siyasi partiyadan 50-sinin siyasi bəyanatında öz əksini tapdı. Şübhəsiz ki, bu, belə də olmalı idi. Bütün müsahibələrdə, xarici görüşlərdə gülünc vəziyyətə düşən Ermənistan rəhbərindən fərqli olaraq cənab Prezidentin səsləndirdiyi bütün fikirlər bilavasitə ölkəmizin beynəlxalq nüfuzuna müsbət təsir etdi. Bütün çıxışlarda və çağırışlarda ölkə başçımızın siyasi mövqeyindəki qətiyyət açıq şəkildə hiss olunmaqdadır və dünyanın hər yerindən bu bəyanatlar maraqla izlənir.

Ordumuzun uğurlu döyüş əməliyyatları indi də davam edir və ciddi uğurlarımız var. Ali Baş Komandanın son müraciətini eşitdikdən sonra Ermənistan siyasi hakimiyyəti təşviş içindədir. Düşmənin mülki əhalini atəşə tutmasına baxmayaraq, xalqımız heç nədən qorxmur, çəkinmir. Gənclərimiz də həm döyüş meydanında, həm də informasiya müharibəsində düşməni məhv edir. Şübhəsiz ki, Yeni Azərbaycan Partiyasının gəncləri də hər iki cəbhədə ön sıralarda addımlayır və partiyamızın hər bir gənci üçün torpaqlarımızın azadlığı uğrunda mübarizənin bir parçası olmaq qürurdur, şərəfdir.

***Yaşasın, şanlı vətənimiz!***
***Qarabağ Azərbaycandır!***

**Əli Babazadə,**
**Tarix fakültəsinin tələbəsi**

# Ali Baş Komandanımıza və ordumuza güvənirik!

***Bir Füzuli sakini olaraq son günlərdə gedən Qarabağ müharibəsində əldə edilən uğurlara biganə qala bilmədim. Əldə etdiyimiz uğurlara görə sevincimin həddi-hüdudu yoxdur.*** Ata-babalarımızdan eşidib təəssüf ki, görmədiyimiz o doğma yurdumuzun xəyalı ilə keçirdiyimiz günlər Ali Baş Komandanımız və ordumuzun sayəsində artıq geridə qalır. Cəbhədən gələn ard-arda sevincli xəbərlərin davamında öz yurdum Füzulinin, ardınca isə bütün Qarabağın işğaldan azad olunması xəbərini Prezidentimizdən duymağı səbirsizliklə gözləyirəm. Füzuli rayonunda ön cəbhədə necə həvəslə və qürurla döyüşən əsgərlərimizi, arxa cəbhədə isə hər an təhlükə ilə üzbəüz qalmalarına baxmayaraq yerli əhalinin ordumuza verdiyi dəstəyi gördükdə qürurlanmamaq mümkün deyil.

Bütün Qarabağlılar öz torpaqlarının düşmən tapdağından azad ediləcəyi anı səbirsizliklə gözləyir və bu anın çox da uzaqda olmadığına inanırlar. Ali Baş Komandanımıza və ordumuza bütün qəlbimizlə güvənir, 30 ildir həsrətində olduğumuz torpaqlarımıza qısa zamanda qovuşacağımıza inanırıq.

Biz Azərbaycan gəncləri əminik ki, Ali Baş Komandanımızın və rəşadətli ordumuzun sayəsində şəhidlərimizin qanının bir damlası belə yerdə qalmayacaq.

**Qarabağ Azərbaycandır!**

***Mədinə Quluzadə,***
***Coğrafiya fakültəsinin tələbəsi***

# BDU tələbələri "Tələbədən əsgərə” orduya dəstək layihəsinə başlayıb

***Sentyabrın 27-də mənfur Ermənistan Silahlı Qüvvələri cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini, yaşayış məntəqələrini, dinc Azərbaycan əhalisini hədəf alaraq, iriçaplı silahlar, müxtəlif çaplı artilleriya qurğularından atəşə tutmağa başladı.*** Nəticədə Azərbaycanın mülki əhalisi arasında həlak olan və yaralananlar oldu, mülki infrastruktur obyektlərinə ciddi ziyan dəydi. Bundan sonra qüdrətli Azərbaycan Ordusu düşmənə öz gücünü göstərməyə başladı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi, qüvvətli Ordumuzun gücü ilə tarixi ədalət bərpa olunur.

Azərbaycan xalqı həmrəylik nümayiş etdirərək ərazi bütövlüyümüzün bərpa olunmasında mütəşəkkildir. Xüsusi ilə qeyd etmək lazımdır ki, ölkə gəncliyi, istər cəbhədə misilsiz rəşadəti ilə, istərsə də informasiya müharibəsində Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında müstəsna fəaliyyət göstərir. Bakı Dövlət Universitetinin tələbə-gəncləri də haqq mübarizəsində daim ön sıralarda qərarlaşıblar. Universitetin Filologiya fakültəsinin tələbəsi Ələkbər Həsənov "Tələbədən əsgərə” orduya dəstək layihəsinə başlayaraq videoçarx hazırlayıb. BDU-nun tələbə-gəncləri hər an Ali Baş Komandanın, qüdrətli ordumuzun yanında olduqlarını bildirib, cəbhə üçün, qələbə üçün bütün qüvvələrin səfərbər olduğunu qeyd ediblər. Ə.Həsənov layihənin təşkilinə görə Bakı Dövlət Universitetinin rəhbərliyinin və Tələbə Gənclər Təşkilatının üzvlərinə təşəkkürünü bildirib.

***Ələkbər Həsənov,***
***Filologiya fakültəsinin tələbəsi***

**Buraxılışa məsul:**
Afaq Sadıqova

**Redaksiya heyəti**
Əliş Ağamirzəyev
Vüqar Əliyev
Cahangir Məmmədli
Həmid Vəliyev
Allahverdi Məmmədli
Nəsir Əhmədli

**Dizayn - tərtibat:**
Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.
**Çapa imzalanıb:** 28.10.2020
**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.